**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

# 6107.01 "ÜMUMİ PSİXOLOGİYA"

**ixtisası üzrə fəlsəfə doktoru proqramı əsasında doktoranturaya qəbul imtahanı**

**PROQRAM**

**Bakı-2026**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

# 6107.01 “ÜMUMİ PSİXOLOGİYA”

**ixtisası üzrə fəlsəfə doktoru proqramı əsasında doktoranturaya qəbul imtahanı**

**PROQRAM**

**Proqram Sosial Elmlər və Psixologiya fakültə**
**Elmi Şurasında 19 mart 2026-cı il tarixində təsdiq edilmişdir.**
**(protokol №7)**

**BAKI-2026**

**Tərtib edənlər:** professor, psixologiya elmləri doktoru

Rəna Qədirova

## MƏZMUNU

Ümumi qaydalar
Bölmə I. Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri
Bölmə II. Fəlsəfə doktoru imtahanının verilməsi prosesində yoxlanan bacarıqlar
Bölmə III. Fəlsəfə doktoru imtahanı proqramının məzmunu
Fəsil 1. Psixologiyanın bir elm kimi xarakteristikası
Fəsil 2. Psixologiyanın tədqiqat metodları
Fəsil 3. Fəaliyyət və onun iradi tənzimi
Fəsil 4. Şəxsiyyət
Fəsil 5. Qrupun psixologiyası
Fəsil 6. Ünsiyyətin psixologiyası
Fəsil 7. Diqqət
Fəsil 8. Duyğu
Fəsil 9. Qavrayış
Fəsil 10. Hafizə
Fəsil 11. Təfəkkür
Fəsil 12. Nitq
Fəsil 13. Təxəyyül
Fəsil 14. Hisslər, emosiyalar
Fəsil 15. Temperament
Fəsil 16. Xarakter
Fəsil 17. Qabiliyyətlər
Bölmə IV. Tədris-metodik və informasiya təminatı
Bölmə V. Qiymətləndirmə meyarları
Bölmə VI. Fəlsəfə doktoru imtahanına hazırlaşmaq üçün nümunəvi sualların siyahısı

## ÜMUMİ QAYDALAR

**“Ümumi psixologiya”** fənni 61 - Psixologiya ixtisası, 6107.01 “Ümumi psixologiya” istiqaməti proqramı üzrə doktoranturada elmi pedaqoji kadrlar hazırlığının variativ hissəsinə aid məcburi fəndir.

“Ümumi psixologiya” fənninin öyrənilməsi bakalavr və magistr hazırlığı üzrə əsas təhsil proqramının mənimsənilməsi prosesində doktorantların yiyələndiyi biliklərin məcmusuna əsaslanır. Proqramın əsasını aşağıdakı fənlərin əsas müddəaları təşkil edir: “Psixologiyaya giriş”, “Duyğu və qavrayış”, “Diqqət və hafizə”, “Nitq və təfəkkür”, “Emosiya və motivasiya”, “Fərdiyyət və şəxsiyyət”, “Psixoloji eksperiment: nəzəriyyə və praktika”, “Ünsiyyət psixologiyası”, “Psixologiyada idrakın səviyyələri və formaları” fənni üzrə fəlsəfə doktoru imtahanına daxil edilmiş sualların mənimsənilməsinin nəticələri doktorantların elmi-tədqiqat və peşəkar fəaliyyətləri üçün həlledici əhəmiyyətə malikdir.

“Ümumi psixologiya” fənni üzrə fəlsəfə doktoru imtahanı tədris planında və təqvim tədris qrafikində müəyyən edilmiş müddətlərdə keçirilir.

“Ümumi psixologiya” fənni üzrə fəlsəfə doktoru imtahanı proqramında fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri, ona olan tələblər müəyyən edilmiş, fəlsəfə doktoru imtahanının məzmunu və qiymətləndirmə meyarları təsvir edilmişdir.

“Ümumi psixologiya” fənni geniş erudisiyalı, fundamental elmi bazaya malik olan, elmi yaradıcılığın metodologiyası və müasir informasiya texnologiyaları barədə

məlumatlı, müstəqil elmi-tədqiqat və elmi-pedaqoji fəaliyyətlə məşğul olmağı bacaran və buna hazır olan şəxsiyyətin formalaşmasına imkan yaradır.

## I BÖLMƏ. ELMİ İXTİSAS ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHANININ HƏDƏFLƏRİ VƏ MƏQSƏDLƏRİ

6107.01 - "Ümumi psixologiya" elmi ixtisas üzrə doktoranturada təhsil alanların hazırlığının hədəfi psixologiya elminin problemləri və nailiyyətlərinə yiyələnən, müstəqil tədqiqat qurub kecirilməsi bacarığına malik ali ixtisaslı kadrlar hazırlanmasından, bu sahənin yüksək ixtisaslı mütəxəssislərlə təmin etməkdən, doktorantın elmi ixtisas fənlərinin öyrənilməsinin yekunlarına əsasən onun bacarıqlarının səviyyəsini aşkar etmək və qiymətləndirməkdən ibarətdir.

**Tədqiqatın məzmunu aşağıdakılardır:** Ümumi psixologiyanın problemləri.

Ümümı psixologiyanın fundamental ümumi məsələləri: Psixika, onün əmələ qəlməsi, inkişafı mexanizmləri və qanunauyğunluqları, psixoloji tədqiqatlarının metodplojı və metodiki əsaslar. Şüur, şüurun psixoloji xarakteristikası. Fərdi və ictimai şüur. Dərk edilməyən proseslər. Tələbatlar və motivlər, fəaliyyətin təşkilində onların rolu. Motivasiya, onun quruluşu və fəaliyyətin tənzimi məsələləri.

Ümumi psixologiyada idrak prosesləri problemi. Sensor-perseptiv proseslərin mexanizmləri, qanunauyğunluğları, hissi idrak fəallığı məsələləri. Duyğuların inkişafı və sensor tərbiyənin aktual məsələləri. Duyğuların pozulması. Qavrayışın inkişafı. Diqqət, hafizə, nitq, təxəyyül, təfəkkür və iradə proseslərinin psixologiyası. Hafizə modelləri. Təfəkkür və intellekt. Təfəkkürün inkişafında təlimin rolu. Bədii və elmi yaradıcılıqda təxəyyülün rolu. Hiss və əmosiyaların psixoloji təhlili, fəaliyyətin tənzim edilməsində onların rolu. Emosional hallar. Affektlər, hislər, ehtiraslar, əhvallar, frustrasiyaya stressin fizioloji və psixoloji aspektləri, posttravmatik stressin psixoloji nəticəsi. Emosional proseslər və şəxsiyyətlərarası münasibətlər; şəxsiyyətin emosional keyfiyyətləri.

Şəxsiyyətin psixologiyası. Mənlik şüuru, "Mən" konsepsiya, "Mən" obrazın formalaşması. Şəxsiyyətin inkişafında psixoloji problemlər və onların korreksiyası.
Şəxsiyyətin özünüqiymətləndirməsi və iddia səviyyəsi. Şəxsiyyətlərarası münasibətlər. Şəxsiyyətlərarası attraksiya. Qarşılıqlı anlama effektləri. Fərdi şüurun formalaşmasında sosial münasibətlərin rolu.

Fərdi psixoloji xüsusiyyətlərin psixologiyası. Fərdiyyət psixologiyası. Temperament tipləri. Tərbiyə prosesində temperament tipləri. Peşəseçmə və temperament. Xarakterin əlamətləri, onları şərtləndirən amillər. Xarakter və özünütərbiyə məsələləri. Xarakterin aksentuasiyası. Aksentuasiyaların tədqiqi. Psixopatiyalar. Qabiliyyətlərin psixologiyasaı. Qabiliyyətlərin mexanizmləri və qanunauyğunluqları. Qabiliyyətlərin bilik, bacarıq, vərdişlərlə əlaqəsi. Qabiliyyətlərin formalaşması.

**Tədqiqatın obyekti aşağıdakılardır:** əsas psixoloji anlayışlar, psixika, fəaliyyət və psixi inikişaf haqqında təlimlər, şüur və şüursuzluq modelləri , idrak proseslərin mexanizmlərinin, qanunauyğunluqlarının müasir tədqiqi imkanları, şəxsiyyət, ünsiyyət və şəxsiyyətlərarası münasibətlərin imkanlarını açıqlayan mövcud nəzəri yanaşmalar, fərdi psixoloji xüsusiyyətlər və onların formalaşmasının əsas xüsusiyyətlərini açıqlayan təlimlər və nəzəriyyələr.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfi** təhsil alanlar tərəfindən

əsas ali təhsil proqramının - 61 - “Psixologiya” hazırlıq istiqaməti, 6107.01 - “Ümumi psixologiya” istiqaməti üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlanması proqramının mənimsənilməsinin nəticələrinin Dövlət Ali Təhsil Standartlarının müvafiq tələblərinə nə dərəcədə uyğun olduğunu təyin etməkdir.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının məqsədləri:**

– elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanına hazırlıq və fəlsəfə doktoru imtahanının verilməsi prosesində 61 - “Psixologiya” hazırlıq istiqaməti üzrə Dövlət Ali Təhsıl Standartlarının tələbləri (ali ixtisaslı kadrların hazırlıq səviyyəsi) və təhsil alanların ali təhsil proqramının - doktoranturada elmi-pedaqoji kadrların hazırlanması proqramının mənimsənilməsi prosesində əldə etdikləri faktiki bilik, bacarıq və vərdişlərin, o cümlədən ümumi psixologiya ümumi və xüsusi biliklərin səviyyəsini təyin etmək;

– doktorantın ümumi psixologiyanın kateqoriyalarını, anlayışlarını və metodologiyasını, psixologiya elminin konseptual (fundamental) problemlərini, tədqiq edilən problemlərə əsas elmi yanaşmaları nə dərəcədə mənimsədiyini aşkar etmək;

– doktorantın nəzəri və tətbiqi psixoloji problemləri və prosesləri təhlil etmək, yeni və ya daha əvvəl məlum olan faktları, prosesləri və meylləri dərk etmək, ümumi psixoloji proseslərin qanunauyğunluqlarına əsaslanaraq inkişaf istiqamətlərini aşkar etmək, anlamaq və öncədən görmək bacarığını qiymətləndirmək;

– doktorantın tədqiqat metodlarını müstəqil öyrənmək, müasir elmi nailiyyətləri tənqidi mövqedən təhlil etmək və qiymətləndirmək, tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı yeni ideyalar irəli sürmək, ümumi psixologiyanın əsas problemlərini müasir metodikalar vasitəsilə araşdirilmasını təmin etmək qabiliyyətini qiymətləndirmək.

## II BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANININ VERİLMƏSİ PROSESİNDƏ YOXLANAN BACARIQLAR

Doktorantura proqramının ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı aşağıda sadalanan **bacarıqların** üzə çıxarılmasına yönəldilmişdir:

**Universal bacarıqlar:**

- müasir elmi nailiyyətləri tənqidi mövqedən təhlil etmək və qiymətləndirmək, tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yeni ideyalar irəli sürmək qabiliyyəti;

**Ümumi peşəkar bacarıqlar**:

- müvafiq peşə sahəsində müasir tədqiqat metodlarından və informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə müstəqil elmi-tədqiqat fəaliyyətini həyata keçirmək qabiliyyəti.

**Peşəkar bacarıqlar:**

- ümumi psixologiya elminin müxtəlif sahəsinə dair nəzəri və eksperimental tədqiqatların metodologiyasının mənimsənilməsi;
- psixikanı, psixikasının inkişafını, fəaliyyəti, ünsiyyəti, şüuru, idak proseslərini,

şəxsiyyəti hərtərəfli təhlil etmək qabiliyyəti;

– psixikanın qanunauyğunluqlarının tədqiqi zamanı psixologiya elminin nəzəri əsaslarından istifadə etmək qabiliyyəti.

**Fəlsəfə doktoru imtahanında doktorant aşağıda sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:**

**biliklər:**

- psixologiya sahəsində elmi-tədqiqat fəaliyyətinin əsas metodları və prinsipləri;
- şəxsiyyət, üsiyyət, inkişaf, koqnitiv psixologiya sahələrində olan nəzəriyyələr və eksperimental tədqiqat üsulları;
- psixoloji tədqiqatların metodoloji xarakteristikaları;
- psixologiyada tədqiqatın planlaşdırılması və keçirilməsi;
- psixologiyada bühran dövrləri;
- psixologiyanın klassik və müasir nəzəri əsasları, tədqiqat məsələlərinin qoyuluşu üsulları;
- idrak proseslərin qanunauyğunluqları;
- şəxsiyyət quruluşu, şəxiyyətin inikişafına təsir edən amillər;
- fərdi psixoloji xüsusiyətlər probleminə konseptual yanaşmalar;
- müasir psixoloji nəzəriyyələr, elmi tədqiqat problemləri və onların metodoloji əsasları;

**bacarıqlar:**

- psixikanın qanunauyğunluqlarını tədqiq edərkən psixologiya elminin nəzəri əsaslarını tətbiq etmək;
- psixoloji tədqiqatların formalarını, metodlarını və texnologiyalarını tətbiq etmək;
- tədqiqat və praktiki xarakterli məsələlərin həllinin alternativ variantlarını təhlil etmək və bu variantların reallaşdırılmasının potensial faydasını/zərərini qiymətləndirmək;
- tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı mövcud resurslar və məhdudiyyətlər əsasında ayrı-ayrı əməliyyatlar şəklində yeni ideyalar irəli sürmək;
- şəxsiyyəti, fəaliyyəti, şüuru, ünsiyyəti , mənlik şüurunu, şəxsiyyətlərarası münasibətləri təhlil etmək ;
- idrak prosesləri təhlil edib onların inkişaf perspektivləri haqqında proqnoz vermək;
- elmi məktəblərin və istiqamətlərin konseptual müddəalarını qiymətləndirmək;
- ümumi psixologiya elminin öyrənilməsinə müasir metodoloji yanaşmaları tətbiq etmək və onun problemləri barədə əsaslandırılmış şəxsi fikrini bildirmək;
- eksperimental-psixoloji tədqiqat zamanı alınan göstəricilərin təhlili və ümumiləşdirilməsi fəaliyyətini həyata keçirmək;
- tədqiqatların nəticələrini məntiqli şəkildə yazılı və şifahi formada tərtib etmək;

**vərdişlər:**

- tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yaranan metodoloji problemləri təhlil etmək;
- müasir elmi nailiyyətləri, o cümlədən fənlərarası sahələrdə tədqiqat və praktiki xarakterli məsələlərin həlli üzrə fəaliyyətin nəticələrini tənqidi mövqedən təhlil etmək və qiymətləndirmək;
- müstəqil nəzəri və empirik tədqiqat aparmaq qabiliyyəti;

- şifahi və yazılı nitqini məntiqi cəhətdən düzgün, əsaslandırılmış və aydın şəkildə qurmaq; fənlərarası qarşılıqlı təsiri həyata keçirmək, tədqiqat məsələlərinin həlli üçün perspektivli nəzəri-metodoloji və elmi-praktik yanaşmaları inkişaf etdirmək qabiliyyəti;
- tədqiqat işinin müxtəlif metodları;
- psixikanın təhlil edilən qanunauyğunluqlarına psixoloji nəzəriyyə prinsiplərini praktiki tətbiq etmək qabiliyyəti;
- psixoloji biliyin alətləri;
- ən əhəmiyyətli göstəricilərin riyazi-statistik üsullarla işlənməsi və alınan nəticələrin təhlili;
- psixoloji yanaşma və konsepsiyalarla praktiki iş vərdişlərinə, tədqiqatçı-psixoloq düşüncə tərzinə malik olmaq;
- yerli və xarici alimlərin ən əhəmiyyətli, konseptual işlərini qiymətləndirmə bacarığı.

## III BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANI PROQRAMININ MƏZMUNU

**Mövzu 1. Psixologiyanın bir elm kimi xarakteristikası**

Psixologiyanın predmeti haqqında təsəvvürlərin inkişafı. Psixologiyanın bir elm kimi tərifi. Psixologiyanın elmlər sistemində yeri. Psixologiya elminin sahələri, onların təsnifi prinsipləri və məsələləri. Psixologiyanın predmeti haqqında təsəvvürlərin inkişaf mərhələləri. Qədim yunan filosoflarının təlimlərində psixoloji ideyaların inkişafı. Orta əsrlərdə psixoloji ideyaların inkişafı. XVII–XIX-cu əsrlərdə psixologiyanın inkişafı. Şüurun klassik introspektiv psixologiyası. Psixoanaliz və dərinlik psixologiyası. Biheviorizm və neobiheviorizm. Koqnitiv psixologiya. L.S.Vıqotskinin mədəni-tarixi psixologiyası. Azərbaycanda psixoloji fikrin inkişaf tarixi. Psixika psixologiyanın predmeti kimi və psixologiyaya təkamüli daxil edilməsi. Psixika haqqında anlayış. Psixi hadisələr: psixi proseslər, psixi hallar, psixi xassələr. Psixi inkişafın xüsusiyyətləri. Psixikanın meyarları. Psixikanın filogenezdə inkişaf mərhələləri. Elementar sensor psixika. Persepsiv psixika. Heyvanların davranış formaları. İnstinktlər. Öyrənmənin növləri və nəzəriyyələri. Heyvanların intellekti. Psixika və şüur. Şüurun psixoloji xarakteristikası. Şüurun funksiyası və strukturu. Şüur və şüursuzluq. Dərk edilməyən proseslərin növləri. Fərdi və ictimai şüur. Psixikanın ontogenezdə inkişafının şərtləri və hərəkətetdirici qüvvələri. L.S.Vıqotski psixi inkişaf haqqında. Təbii və ali psixi funksiyalar. Ali psixi funksiyaların xüsusiyyətləri və onların əmələ gəlmə xüsusiyyətləri.

**Mövzu 2. Psixologiyanın tədqiqat metodları**

Eksperimental psixoloji tədqiqatın metodologiyası Psixologiyada metod və metodologiya anlayışları. Psixoloji tədqiqatın metodikası. Psixologiyada tədqiqat metodların təsnifatı. Eksperimental tədqiqatın mərhələləri. Psixoloji tədqiqatın planlaşdırılması. Tədqiqatın fərziyyəsi. Psixoloji tədqiqatın prinsipləri. Psixologiyada ölçü problemi. Eksperimentin nəticələrinin təhlili və təsviri. Müşahidə metodu və onun növləri. Eksperiment: təbii və laborator eksperiment. Psixodiaqonstik üsullar. Testlər və onların təsnifatları. Testin effektlivlik meyarları.

**Mövzu 3. Fəaliyyət və onun iradi tənzimi**

Fəaliyyət haqqında anlayış. Fəaliyyət və fəallıq. Tələbatlar fəallığın mənbəyi kimi. Tələbatların mənşəyinə (təbii və mədəni) və predmetinə (maddi və mənəvi) görə növləri.

İnsan tələbatlarının inkişaf xüsusiyyətləri. Tələbatlar və motivlər, fəaliyyətin təşkilində onların rolu. Motivasiyanın nəzəriyyələri: dispozisional və situativ; klassik psixoanalizdə motivasiyanın nəzəriyyələri, biheviorizmdə və neobiheviorizmdə motivasiyanın nəzəriyyələri. Tələbatların və motivlərin təsnifat əsasları. İnsan tələbatlarının spesifikası; insanin əsas tələbatları; motivasiya hadisələrinin dispozision xarakteri; tələbatların əşyalandırma formaları; tələbatların psixoloji və fizioloji təzahürü. Motivlərin funksiyaları. Motivlərin dərk olunmasına və təhrikedici güvvəsinə təsir edən faktorlar. Tələbatların və motivlərin iyerarxiyası və bir-birinə tabe edilməsi. Motivasiyanın fəaliyyət prosesinə və səmərəliyinə təsiri; fəaliyyət prosesində motivasiya dinamikasının determinantları ("motivin məqsədə keçidi"). K.Levin məktəbinin situativ motivasiyasının tədqiqatları: bitirilməmiş əməliyyatların daha yaxşı yadda saxlama effekti. (Zeyqarnik), doyma effekti, əvəz etmə, bitirilməmiş hərəkət effekti, iddia səviyyəsinin dinamikası. İnsanın tələbat və motivasiya dairəsinin inkişafının hərəkətedici qüvvələri, şərtləri və etapları; aparıcı fəaliyyətin əvəz edilməsinin qanunauyğunluqları, şəxsiyyətin iradi keyfiyyərləri. Fəaliyyətin quruluşu. İş və hərəkətlər. Vərdişlər və onların əmələ gəlməsi. Fəaliyyətin əsas növləri: oyun, təlim, əmək. İradə haqqında anlayış. Fəaliyyətin iradi tənzimi. İradi işin quruluşu və funksiyaları. Motivlər mübarizəsi. Psixologiyada "tələbat" kateqoriyası. Tələbatların təbiəti və növləri. Psixologiyada tələbatların təsnifatının təhlili. Motiv tələbatların əşyavilə şdirilməsi nəticəsi kimi. Motivasiya vəziyyət kimi. Şəxsiyyətin motivasiya dairəsi anlayışı, onun quruluşu. Motivasiya və fəaliyyət.

**Mövzu 4. Şəxsiyyət**

Şəxsiyyətin strukturu. Şəxsiyyətin strukturunun təyin olunmasına əsas yanaşmalar. Psixologiyada şəxsiyyət haqqında anlayış. Fərd, şəxsiyyət və fərdiyyət anlayışlarının müqayisəsi. Şəxsiyyətin tədqiqinə müxtəlif yanaşmalar. Sistem yanaşma. Münasibətlər nəzəriyyəsi (Lazurski, Myasişev). Klassik biheviorizm şəxsiyyət psixologiyası haqqında (C.Uotson, B.F.Skinner). Neobiheviorizm. Z.Freydin psixoanalizində şəxsiyyət, onun strukturu və inkişafı haqqında təsəvvürlər, A.Adlerin fərdi psixologiyası: bütövlük və natamamlıq prinsipləri; şəxsiyyətin həyat tərzi haqqında təsəvvürlər. K.Q. Yunqun analitik psixologiyası. "Persona","Kölgə" şəxsiyyətin struktur komponenti kimi. "Arxetip", "Kompleks", "Özlülük" kateqoriyaları. E.Eriksonun , E. Fromun neofreydist yanaşmaları. Şəxsiyyətə interaksionist və koqnitivist yanaşmalar. K.Levinin, H.Mürreyin, C.Kellinin şəxsiyyət nəzəriyyələri. Şəxsiyyət psixologiyasında humanistik yönəliş. Q.Olportun şəxsiyyətin açıq sistem kimi nəzəriyyəsi. Şəxsiyyətə humanistik yanaşma prinsipi (K. Rocers). A.Maslounun şəxsiyyətin özünüaktuallaşdırma nəzəriyyəsi . V. Franklın məna axtarışı nəzəriyyəsi.

Mənlik şüuru və onun funksiyaları. "Mənin" kəşf olunması. "Mən" obrazının formalaşması. Şəxsiyyətin inkişafında psixoloji problemlər və onların korreksiyası. Şəxsiyyətin özünüqiymətləndirməsi və iddia səviyyəsi. Şəxsiyyətin inkişafında bioloji və sosial amillər.

**Mövzu 5. Qrupun psixologiyası**

Psixologiyada qrup anlayışı. Qrupların tədqiqi ilə bağlı əsas istiqamətlər. Qrupun əsas xarakteristikası. Qrupların təsnifatı. Formal və qeyri-formal qruplar. Qrup və kollektiv. Kiçik qrupun dinamik prosesləri: qrup təzyiqi fenomeni, konformluq və konformizm; M.Şerif və S.Aşın tədqiqatları. Qrup birliyi fenomeni

(L.Festinqer,T.Nyukom). Kiçik qruplarda liderlik və rəhbərlik. Liderlik nəzəriyyələri. Liderlik üslubları. Qrup qərarının qəbulu. Grup gütbləşməsi effekti. Qrup münasibətlərinin öyrənilmə metodları. Sosiometriya. Referentometriya. Şəxsiyyətin qrupda sosiometrik statusu. Şəxsiyyətin sosiometrik statusunun onun şəxsi keyfiyyətlərindən asılılığı. Böyük qrupların psixoloji xarakteristikaları. Mədəniyyət və etnos. Etnik stereotiplər.

**Mövzu 6. Ünsiyyətin psixologiyası**

Ünsiyyətin tərifi. Ünsiyyət və fəaliyyət. Ünsiyyətin strukturu. Ünsiyyət informasiya mübadiləsi kimi. Ünsiyyət qarşılıqlı təsir kimi. Qarşılıqlı təsir birgə fəaliyyətin təşkili kimi. Sosial persepsiya anlayışı. Ünsiyyət prosesində qarşılıqlı anlama mexanizmləri: identifikasiya, refleksiya, empatiya. Atribusiya nəzəriyyəsi. Qarşılıqlı anlama effektləri. Şəxsiyyətlərarası attraksiya. Sosial-psixoloji treninq; treninqin xüsusiyyətləri və növləri. Şəxsiyyətlərarası münasibətlər. Fərdi şüurun formalaşmasında sosial münasibətlərin rolu. Sosial münasibətlərin strukturu və sosial rol anlayışı. Şəxsiyyətlərası münasibətlərin emosional əsasları. Aqressiya. Aqressiyanın bioloji və sosial amilləri. Aqressiya nəzəriyyələri. Affiliasiya və sosial kontaktlarda tələbat. Altruizm, eqoizm və empatiya. Altruizm nəzəriyyələri.

**Mövzu 7. Diqqət**

Diqqət haqqında anlayış. Diqqət və şüur. Diqqətin funksiyaları. Diqqətin əhəmiyyəti. Diqqətin fizioloji mexanizmləri. Diqqətin növləri. Qeyri-ixtiyari diqqəti şərtləndirən əsas amillər. İxtiyari diqqətin inkişafı və xüsusiyyətləri. İxtiyari diqqətdən sonrakı diqqət. Diqqətin xüsusiyyətləri: davamlılığı, keçirilməsi, paylanması, həcmi, tərəddüdü, yayınması.

Diqqətin dalğınlığı. Diqqətin nəzəriyyələri və modelləri Erkən seleksiya nəzəriyyəsi (Brodbent, Treysman). Ləngimiş seleksiya nəzəriyyəsi (Norman). Koqnitiv modellər: C. Brodbentin filtr (süzgəc)modeli, E.Treysmanın bölən modeli, D.Kanemanın ehtiyatların paylanması modeli.

**Mövzu 8. Duyğular**

Duyğular haqqında anlayış. Reseptorlar və analizatorlar. Duyğu haqqında nəzəriyyələr. Duyğuların növləri və onların təsnifat kriteriyaları. Xarici duyğular, daxili duyğular, hərəkət duyğularının ümumi xarakteristikası. Duyğuların ümumi qanunauyğunluqları. Duyğuların psixofizikası. Duyğu həddi: yuxarı və aşağı mütləq həddi və fərqləndirmə həssaslığı. Adaptasiya. Duyğuların qarşılıqlı təsiri. Sensibilizasiya. Sinesteziya. Duyğuların inkişafı və sensor tərbiyənin aktual məsələləri. Duyğuların pozulması.

**Mövzu 9. Qavrayış**

Qavrayış haqqında anlayış. Qavrayış nəzəriyyələri. Helmholsun şüursuz əqlinəticə nəzəriyyəsi. C.Hibsonun ekoloji nəzəriyyəsi, C.Brunerin kateqorizasiya nəzəriyyəsi. Heştaltpsixologiya qavrayış haqqında. Qavrayışda obyekt və fon. Heştaltın perseptiv təşkilat qanunları. Qavrayışın koqnitiv modelləri. Qavrayışın həcmi. Qavrayış surətlərinin əsas xüsusiyyətləri. Appersepsiya və illüziyalar. Qavrayışın təsnifatı. Məkan, zaman və hərəkət qavrayışı. Uzaqlıq və dərinlik qavrayışı. Binokulyar parallaks.

Disparantlıq. Stroboskopik hərəkət. Fi-fenomen. Qavrayışın inkişafı. Şəxsiyyətin istiqaməti və qavrayış. Qavrayışın öyrənilmə üsulları. Qavrayışın pozuntuları.

**Mövzu 10. Hafizə**

Hafizə haqqında anlayış. Hafizənin əhəmiyyəti. Müasir psixologiyada hafizə problemi. Hafizə haqqında nəzəriyyələr (psixoloji, fizioloji, biokimyəvi). Hafizənin təsnifatına ümumi yanaşmalar. Hafizənin növləri. Hafizənin prosesləri və onların işləməsinin əsas qanunauyğunluqları. Hafizənin koqnitiv modelləri. R.Atkinson və R.Şifrin modeli. Struktur model: sensor registr, qısamüddətli saxlanma (operativ hafizə), uzunmüddətli hafizə. Sperlinqin eksperimentləri. Uzunmüddətli hafizənin strukturu və işləməsi. Petersonların eksperimentləri. Norman və Vo modeli. Unutma. Retroaktiv və proaktiv interferensiya. Məlumat emalının dərəcə effektləri. Hafizə prosesində fərdi fərqlər. Hafizənin tipləri. Hafizənin patologiyası. Hafizənin inkişafı və mümarisəsi. Hafizənin tədqiqat metodları.

**Mövzu 11. Təfəkkür**

Təfəkkür haqqında anlayış. Təfəkkürün xüsusi xarakteristikası: ümumiləşdirmə, vasitəlilik, aktivlik, məqsədyönlülük. Təfəkkür və hissi idrak. Məntiq və psixologiyada təfəkkür problemi. Təfəkkür psixologiyasının predmeti. Təfəkkür məsələ həlli kimi. Təfəkkür məlumatın emalı prosesi kimi. Təfəkkür ali psixi funksiya kimi, nitqi təfəkkür, sözün mənası təfəkkürün təhlil vahidi kimi. Fikri fəaliyyətin motivasiyası. İdrak motivləri. Fikri əməliyyatlar. Təfəkkürün fomaları: məfhum, hökm, əqli nəticə. Məfhumların formalaşması prosesi və onun öyrənmə yolları. Təfəkkürün növləri: əyani-əməli, əyani-obrazlı və mücərrəd təfəkkür. Yaradıcı təfəkkürün xüsusiyyətləri. Təfəkkür sahəsində fərdi fərqlər, əqli keyfiyyətlər. təfəkkür və onun müxtəlif psixoloji məktəblərdə öyrənilməsi. Təfəkkür və intellekt. J.Piajeyə görə intellektin inkişaf mərhələləri. Təfəkkürün inkişafında təlimin rolu. Təfəkkürün tədqiqat metodları. Təfəkkürün pozuntuları.

**Mövzu 12. Nitq**

Nitqin psixoloji mahiyyəti. Dil və nitq. Dil mənaları. Dilin funksiyaları. Nitqin xüsusiyyətləri. Nitqin funksiyaları. Nitqin növləri. Eqosentrik nitq. Eqosentrik nitqin əmələ gəlməsi və funksiyaları haqqında L.S.Vıqotski və J.Piajenin polemikası. Daxili və xarici nitq. Şifahi və yazılı nitq. Dialoji və monoloji nitq. Semantik diferensial üsulu ilə nitqin tədqiqi. Nitq və ünsiyyət. Təfəkkür və nitqin nisbəti problemi. Nitqi mülahizələrin törəməsi və anlaşılması. Nitqin pozuntuları.

**Mövzu 13. Təxəyyül**

Təxəyyül haqqında anlayış. Təxəyyül ali psixi funksiya kimi. İnsanın həyat və fəaliyyətində təxəyyülün əhəmiyyəti. Təxəyyül surətlərinin yaradılması prosesi. Təxəyyülün növləri. Xülya və xəyal. Röya surətləri. Bərpaedici və yaradıcı təxəyyül, onların başlıca xüsusiyyətləri. Kreativlik haqqında anlayış. Bədii və elmi yaradıcılıqda təxəyyülün rolu. Təxəyyülün tədqiqat metodları. Təxəyyülün diaqnostikası və inkişaf metodları.

**Mövzu 14. Hisslər, emosiyalar**

Hisslər haqqında anlayış. İnsanın tələbatları və hisslər. Emosiyaların fizioloji əsasları. Onların siqnal, kommunikativ və tənzimetmə funksiyaları. Emosiyaların xarici ifadə formaları. Əsas emosional hallar və onların xarakteristikası. Hisslər və şəxsiyyət. Ali hisslər. Hisslərin sosial funksiyası. Emosiyaların öyrənilmə üsulları. Şəxsiyyətin emosional sahəsi. Emosional hadisələrin əsas sinifləri. Fəaliyyətin tənzim edilməsində onların rolu. Emosiya və hislərin funksiyaları (V.K,Vilyunas, A.N.Leontyev): kommunikativ, tənzimedici, siqnal, səbəbləndirici, qiymətləndirici, stimullaşdırıcı, qoruyucu. Emosional hadisələrin komponentləri. Emosiyaların bioloji və psixoloji nəzəriyyələri. Emosiyalar və şəxsiyyət. Insan emosiyalarının və tələbatlarının əlaqəsi. Insanın emosional sahəsinin ontogenezdə inkişafı. Emosional proseslərin növləri, emosional proseslərin psixofizioloji əlaqəsi; emosional proseslərin təsnifatı üçün əsaslar. Normal və patoloji affektlərin, hislərin, ehtirasların, əhvalın xarakteristikası. Həyəcanlılığın növləri və təzahürü; frustrasiyaya olan reaksiyaların tipləri; stresin fizioloji və psixoloji aspektləri, posttravmatik stresin psixoloji nəticəsi. Emosional proseslərin və şəxsiyyətlərarası münasibətlərin əlaqəsi; şəxsiyyətin emosional keyfiyyətləri. Emosiya haqqında nəzəriyyələr: emosiyaların ifadəsinin təkamül nəzəriyyəsi (Ç.Darvin); V.Vundtun nəzəriyyəsi; Cems-Langenin emosiyaların periferik nəzəriyyəsi; Kennon-Bard nəzəriyyəsi; emosiyaların koqnitiv nəzəriyyələri; P.K.Anoxinin emosiyaların məlumat nəzəriyyəsi, D.Lindslinin aktivasiya nəzəriyyəsi.

**Mövzu 15. Temperament**

Temperament haqqında anlayış. Temperament haqqında təlimlər. Temperament tipləri: xolerik, sanqvinik, fleqmatik, melanxolik. Temperament tiplərinin psixoloji xarakteristikası. Ali sinir fəaliyyətinin xüsusiyyətləri və temperament tipləri. Şeldon və Kreçmerin konstitusional tipologiyası. Tərbiyə prosesində temperament tiplərinin nəzərə alınması və fərdi yanaşma. Müasir dövrdə temperamentin öyrənilmə üsulları.

**Mövzu 16. Xarakter**

Xarakter haqqında anlayış. Xarakter nəzəriyyələri. Xarakterin quruluşu. Xarakter əlamətlərinin təsnifatı. Xarakterin tipik və fərdi əlamətləri, onları şərtləndirən amillər. Xarakter və özünütərbiyə məsələləri. Xarakterin aksentuasiyası. Aksentuasiyaların tədqiqi. Psixopatiya və onun növləri.

**Mövzu 17. Qabiliyyətlər**

Qabiliyyətlər haqqında anlayış. Qabiliyyət nəzəriyyələri. Qabiliyyətlərin bilik, bacarıq, vərdişlərlə əlaqəsi və onların fərqi. Qabiliyyətlərin quruluşu. Qabiliyyətlər və fəaliyyət. Ümumi və xüsusi qabiliyyətlər. Qabiliyyətlər və irsiyyət. Qabiliyyətlərin formalaşması. İntellekt əmsalı. Qabiliyyətlərin tədqiqi.

## IV BÖLMƏ. TƏDRİS-METODİK VƏ İNFORMASİYA TƏMİNATI

**Əsas ədəbiyyat**


1. Əliyev B.H., Mustafayev M.H., Əhmədova E.Ə. Diqqət və hafizənin psixologiyası. Metodik vəsait, Bakı, 2015, 300 s.
2. Əliyev B.H., Cabbarova L.M. Duyğu və qavrayış. Metodik vəsait, Bakı, 2009, 115 s.
3. Əliyev R.Psixologiya tarixi. Bakı, 2006, 384 s.

4. Bayramov. Ə.Ə.Əlizadə «Psixologiya». Bakı: 2012, 336 s.
5. Qədirova R.H., Babayeva T.T. Ümumi psixologiyadan ixtisas praktikumu. Dərslik. Bakı, 2014, 294 s.
6. Qədirova R.H., İ.M.Məmmədli Ünsiyyət psixologiyası, Dərs vəsaiti, Bakı, 2016 152 s.
7. «Psixologiya» ( S.İ.Seyidov, M.Ə.Həmzəyevin redaktorluğu ilə) Bakı: 2007, 650 s.
8. Дэвид Майерс Психология. Минск, 2001,848 с.
9. Хьелл Л. Зиглер Д. Теории личности. М. Харьков, Минск:1999, 590 с.
10. David G.Myers , Explorinq Psichology, Publisher: Worth Publishers; Eighth edition,2009,581 p.

**Əlavə ədəbiyyat**

1. Əliyeva K.R. Şəxsiyyətin yaradıcılıq psixologiyası. Dərs vəsaiti. Bakı, 2005
2. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji məsələləri. Bakı, 1981
3. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı, 2003
4. Hüseynova G.Q., Musayeva T.M. Emosiya və motivasiyanın psixologiyası. B., 2003
5. Qədirov Ə.Ə. Uşaqlarda idrak proseslərinin inkişafı. B., 1969
6. Qədirova R.H., Babayeva T.T. Ümümi psixologiyadan ixtisas praktikumu Dərslik, BDU, Bakı, 2014, 294 s.
7. Qədirova R.H., Qaragözov R. Stress: özünü və uşağını xilas et. B., 1994
8. Qədirova R.H., Allahyarova S.A. Zoopsixologiya və müqayisəli psixologiya. B., 2001
9. Məmmədov A.İ. Hafizə psixologiyası. B., 1974
10. Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. B., 2013
11. Андерсон Дж. Когнитивная психология. Питер, 2002
12. Асмолов А.Г. Психология личности. М., 1990.
13. Гамезо М.В., Домашенко И.А. Атлас по психологии. М., 2004
14. Гиппенрейтер Ю.Б. Введение в общую психологию. Москва: 2010, 336 с.
15. Глейтман Г.И. др. Основы психологии. СПб, 2001, 1247с.
16. Годфруа Ж. Что такое психология. Т. 102, М., Мир, 2001
17. Изард К. Психология эмоций. Изд-во Московского Универ-та, 1980.
18. Крысько В.Г. Психология и педагогика в схемах и таблицах. Харверст, 1999
19. Леонтьев А.Н. Лекции по общей психологии. М.: Смысл, 2000
20. Личко А.Е. Психопатии и акцентуации характера у подростков. М., 1976
21. Лихи Т. История современной психологии. СПб, 2003, 446 с.
22. Лурия А.Р. Лекции по общей психологии СПб.: Питер, 2006, 320 с.
23. Рубинштейн С.Л. Основы общей психологии. СПб, 2002
24. Солсо Р. Когнитивная психология. М., 1996.
25. Тихомиров О.К. Психология мышления. М., 1984
26. Хекхаузен Х. Мотивация и деятельность, Т.1, пер. с нем, под. ред. Б.М. Велисковского, М., Педагогика, 1986
27. Холл К.С., Линдсей Г. Теории личности. М., 1999
28. Шульц С., Шульц Д. История современной психологии. СПб, 1999

29. Хрестоматия по ощущению и восприятию. М., 1975

## V BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ MEYARLARI

### Metodik göstərişlər

**Doktorantların 61** – "Psixologiya" hazırlıq istiqaməti, 6107.01 "Ümumi psixologiya" ixtisas fənni üzrə ali ixtisaslı kadrların hazırlanması üçün fəlsəfə doktoru imtahanı proqramı üzrə attestasiyası şifahi imtahan şəklində aparılır. Doktorantın fəlsəfə doktoru imtahanına hazırlığı "Ümumi psixologiya" moduluna aid fənlər üzrə mühazirələr və praktiki məşğələlər dövründə, həmçinin auditoriyadan kənar saatlarda müstəqil iş çərçivəsində həyata keçirilir.

**Qiymətləndirmə meyarları.** İmtahan zamanı doktorant proqrama daxil edilmiş suallara ətraflı cavab verməlidir. İmtahan komissiya əlavə suallar da verə bilər. Cavab zamanı doktorant sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:

- psixoloji nəzəriyyələr və eksperimental tədqiqat üsullarına aid biliklər; ümumi psixologiya elminin nəzəri əsasları və tədqiqat metodları; psixi proseslər, vəziyyətlər, fərdi psixoloji xüsusiyyətlərə aid tədqiqatların metodoloji xarakteristikaları;
- ümumi psixologiyanın müxtəlif sahələrində aparılan tədqiqatlarda istifadə olunan metodların, müasir texnikaların tətbiqini; öyrənilən psixi hadisənin qanunauyğunluqlarının tədqiqi zamanı psixologiya elminin nəzəri əsaslarından istifadə edilməsi üzrə bacarıq və vərdişlərini; eksperimental-psixoloji tədqiqat zamanı alınan göstəriciləri ststistik metodlarla işləyərək alınan nəticələri nəzəriyyələrə söykənərək izah etməyi, ümumi psixologiya elminin problemlərinə dair əsaslandırılmış şəxsi fikrini ifadə etməyi bacarmaq, elmi-tədqiqat fəaliyyətinə aid məlumatların toplanmasını, təhlil olunmasını, analizini və təsnifatını həyata keçirə bilmək.
- baxılan sahədə yaranmış mövcud elmi-metodoloji yanaşmaları təhlil etmək, psixoloji tədqiqatların metodologiyasının bu və ya digər məsələləri barədə şəxsi nöqteyi-nəzərini ifadə etmək və əsaslandırmaq qabiliyyəti.

Cavabın tamlığı təhsilin planlaşdırılan nəticələrinin qiymətləndirilməsi göstəricilərinə əsasən təyin edilir.

Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanını qəbul edən imtahan komissiyasının üzvləri (qapalı iclasda açıq səsvermə yolu ilə) **aşağıdakı meyarları rəhbər tutaraq** imtahan verən şəxsin hər bir suala cavabını biliklərin qiymətləndirilməsi üçün beş ballıq sistem əsasında **5("əla"), 4("yaxşı"), 3("kafi") və ya 2("qeyri-kafi")** kimi qiymətləndirirlər. Mübahisəli vəziyyət yaranan halda imtahan komissiyasının Sədri həlledici səsə malikdir.

| **Ballar** | **Qiymətləndirmənin meyarları** |
|---|---|
| **1** | **2** |
| **5 (əla)** | Doktorant anlayışlar aparatını dərindən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu tam açıqlayır. Doktorant elmi ixtisas üzrə yerli və xarici doktrinalar, ümumi psixologiya elminin tarixi, aktual nəzəri problemlər, psixologiya üzrə ixtisasın müvafiq nomenklaturunun şifrinə daxil olan yanaşı elmi fənlər üzrə əsas elmi məktəblər və elmi əsərlər haqqında dərin biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla hərtərəfli tanış |

| | |
|---|---|
| | olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant bu sahədə müasir nəzəri və praktik problemləri tənqidi mövqedən qiymətləndirə bilir. |
| **4 (yaxşı)** | Doktorant zəruri anlayışlar aparatını mənimsədiyini nümayiş etdirərək sualın məzmununu açıqlayır. Doktorant elmi ixtisas üzrə yerli və xarici doktrinalar, ümumi psixologiya elminin tarixi, aktual nəzəri problemlər, psixologiya üzrə ixtisasın müvafiq nomenklaturunun şifrinə daxil olan yanaşı elmi fənlər üzrə əsas elmi məktəblər və elmi əsərlər haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla kifayət qədər tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant bu sahədə müasir nəzəri və praktik problemləri qiymətləndirə bilir. |
| **3 (kafi)** | Doktorant zəruri anlayışlar aparatını qismən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu əsasən açıqlayır. Doktorant elmi ixtisas üzrə yerli və xarici doktrinalar, ümumi psixologiya elminin tarixi, aktual nəzəri problemlər, psixologiya üzrə ixtisasın müvafiq nomenklaturunun şifrinə daxil olan yanaşı elmi fənlər üzrə ayrı-ayrı elmi məktəblər və elmi əsərlər haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla yarımçıq tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant bu sahədə müasir nəzəri və praktik problemləri qiymətləndirməkdə çətinlik çəkir. |
| **2 (qeyri-kafi)** | Doktorant sualın məzmununu kifayət qədər açıqlamır və anlayışlar aparatını mənimsədiyini nümayiş etdirə bilmir. Doktorant elmi ixtisas üzrə yerli və xarici doktrinalar, ümumi psixologiya elminin tarixi, aktual nəzəri problemlər, psixologiya üzrə ixtisasın müvafiq nomenklaturunun şifrinə daxil olan yanaşı elmi fənlər üzrə ayrı-ayrı elmi məktəblər və elmi əsərlər haqqında minimum biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla minimum tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant bu sahədə müasir nəzəri və praktik problemləri qiymətləndirə bilmir. |